

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 69 (20.970)

17 aprel 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Monteneqro parlamentinin sədri, ATƏT Parlament Assambleyasının prezidenti Ranko Krivokapiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ranko Krivokapiç ATƏT Parlament Assambleyasının son dövrdəki fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi. ATƏT Parlament Assambleyasının illik sessiyasının Azərbaycanda keçirilməsinin əhəmiyyətini vurğulayan qonaq bunu əməkdaşlığımızın yeni mərhələsi kimi dəyərləndirdi. Ranko Krivokapiç ATƏT-in Azərbaycan ilə əməkdaşlığı müxtəlif istiqamətlərdə inkişaf etdirməkdə maraqlı olduğunu dedi.

Dövlətimizin başçısı ATƏT-in Bakı Ofisinin yeni statusda fəaliyyətə başlamasının əməkdaşlığımızın genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Regiondakı vəziyyətə toxunan Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkəmizin ərazi bütövlüyünün pozulduğunu və bununla bağlı Azərbaycanın ikili standartlarla üzləşdiyini təəssüflə qeyd etdi.

Görüşdə beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Aprelin 16-da Bakıda Milli Gimnastika Arenasının açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etmişlər.

## Naxçıvan Muxtar Respublikası – 90

# HEYDƏR ƏLİYEV YOLU:



# Naxçıvan reallıqları

*Azərbaycan tarixinin ən şərəfli dövrü olan dövlət müstəqilliyi mərhələsinin taleyində, möhkəmləndirilməsində və gələcək inkişafında ümummilli lider Heydər Əliyevin milli dövlətçilik təlimi dayanır. Hələ keçmiş Sovet hakimiyyəti illərində görkəmli dövlət xadimi Heydər Əliyev böyük uzaqgörənliklə həyata keçirdiyi düşünülmüş tədbirlərlə ölkəmizi və xalqımızı dövlət müstəqilliyinə doğru hazırlamışdır. Heydər Əliyevin Sovetlər İttifaqı dövründəki müdrik və cəsarətli siyasəti milli dövlətçilik təliminin möhkəm bünövrəsini təşkil edir.*

Eyni zamanda Heydər Əliyevin böyük dühası ilə Azərbaycan xalqının müstəqil dövlətçiliyinin konsepsiyası formalaşdırılmışdır. Tale Heydər Əliyevə möhkəm strateji əsaslara malik olan həmin konsepsiyanı həm də həyata keçirmək imkanı yaratmışdır. Böyük dövlət xadimi Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin əsaslarını hazırlamaq mərhələsində olduğu kimi, bu tarixi milli missiyasını həyata keçirmək yollarında da qeyri-adi cəsarət, müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

Qətiyyətlə demək olar ki, çox çətin, mürəkkəb, keşməkeşli yollardan keçərək Azərbaycanın dövlət müstəqilliyinin formalaşdırılması, bütün sahələr üzrə inkişafın ən mühüm təməllərinin yaradılması, milli ideologiyanın, Azərbaycançılıq siyasi təfəkkürünün meydana qoyulması və azərbaycançı cəbhənin mövqeyinin möhkəmləndirilməsi Heydər Əliyev iradəsinin real təzahürləridir. **XX əsrin sonları, XXI yüzilliyin başlanğıcında Azərbaycanın dövlət müstəqilliyinin taleyində Heydər Əliyevin çoxcəhətli, qəti və məqsədyönlü fəaliyyəti ilə müqayisə oluna biləcək başqa bir qüvvə, siyasi şəxsiyyət və ya konkret bir cəbhə təsəvvür etmək mümkün deyildir.** Dövlət müstəqilliyinin formalaşdırılması və möhkəmləndirilməsi baxımından Azərbaycan xalqının üzərinə hansı məsuliyyətli vəzifələr düşürdüsə, görkəmli dövlət xadimi Heydər Əliyev hamısını həyata keçirmiş, ölkəsi və xalqı adından tələb olunan bütün hünərin və fədakarlıqların, sözün əsl mənasında, qəhrəmanlığın nümunəsini göstərmişdir. Bütün bunlara görə müstəqil Azərbaycan dövlətinin qazandığı tarixi nailiyyətlər, böyük zəfərlər ümummilli lider Heydər Əliyev dühasının təntənəsidir. Azərbaycan Prezidenti İlham Əliyev həm beynəlxalq münasibətlər səviyyəsində, həm də ölkə reallıqları miqyasında Heydər Əliyev yolunun yaradıcılıqla, dünyada və ölkəmizdə gedən proseslərlə üzvi əlaqədə davam və inkişaf etdirilməsinin möhtəşəm nəticələrini dünyaya təqdim edir.

Möhtərəm Prezident İlham Əliyevin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına səfəri, həmin səfər çərçivəsində baş verən mühüm hadisələr, muxtar respublikanın 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqi, hər şeydən əvvəl, ölkəmizin inkişafında Heydər Əliyev yolunun rolunu və əhəmiyyətini bir daha real şəkildə nümayiş etdirməyə böyük imkan yaratmışdır. Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə söylədiyi fikirlər ölkə miqyasında, o cümlədən də Naxçıvanda Heydər Əliyev yolunun dərin mənasını, böyük mahiyyətini ümumiləşmiş şəkildə ifadə edir: *"Ulu öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu öndərin həyat və fəaliyyəti, onun siyasəti şəxsiyyətlərin tarixdə rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti ulu öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır".*

Bu sözlərdə, bütövlükdə, Azərbaycan üçün, tarix və gələcək üçün mühüm əhəmiyyətə malik böyük reallıqlar əksini tapmışdır. Bununla belə, Prezident İlham Əliyevin iştirak etdiyi və nitq söylədiyi dövlət əhəmiyyətli tədbirlərin, demək olar ki, hamısında səsləndirdiyi və əsas leytmotivi, ana xətti təşkil edən bu fikirlərin ölkəmizin mühüm bir parçası olan Naxçıvan Muxtar Respublikasında ifadə edilməsinin özünəməxsus böyük mənası və tarixi əhəmiyyəti vardır.

*İlk növbədə,* ona görə ki, Azərbaycanın dövlət müstəqilliyi taleyində görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü xüsusi əhəmiyyətə malikdir. Əvvəla, ulu öndər Heydər Əliyev hələ Sovet hakimiyyəti dövründən etibarən Azərbaycanın ən həssas nöqtələrinə, ölkənin paytaxtında dövlət strukturlarında milli kadrların yerləşdirilməsinin genişləndirilməsinə, beləliklə, Azərbaycançılıq düşüncəsinə real təminat əldə olunmasına, Dağlıq Qarabağın sosial-iqtisadi inkişafının möhkəmləndirilməsinə xüsusi diqqət yetirdiyi kimi, Naxçıvan Muxtar Respublikasının inkişaf etdirilməsinə də ümummilli vəzifələr səviyyəsində böyük qayğı göstərib, ölkənin maraqlarını qorumuşdur.

*İkincisi* isə müstəqillik dövründə Heydər Əliyevin Naxçıvanda yaşayıb çalışdığı, Naxçıvan Muxtar Respublikasının rəhbəri olduğu illərdə Azərbaycan üçün çox əhəmiyyətli olan ölkənin ərazi bütövlüyünün təmin edilməsində böyük tarixi vəzifələri şərəflə həyata keçirmişdir.

**Azərbaycanın bu diyarının – Naxçıvanın mürəkkəb hərbi-siyasi şəraitdə işğaldan xilas olmasının ən başlıca səbəbi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi xalqı öz ətrafında birləşdirərək, region dövlətləri ilə əlaqələri möhkəmləndirərək, böyük güclərin təcavüzünə qarşı müqavimət hərəkatına bacarıqla rəhbərlik etməsi idi. Sözün böyük və gerçək mənasında işğaldan xilas edilib, Azərbaycan torpağı kimi qorunub saxlanılan Naxçıvan Muxtar Respublikası görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətimizə çox mühüm ərməğanı, ölkə və xalq qarşısında böyük xidmətidir.**

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində həmin tarixi proseslərin mühüm nəticələrini ümumiləşmiş şəkildə bir daha yada salması Heydər Əliyev yolunun milli tariximizdəki rolunun əhəmiyyətinə diqqəti cəlb etmək üçün ibrətamiz faktlardır: *"Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi çox ağır ola bilərdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi həll edilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi... O vaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi... Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi müdrikliyini göstərərək ulu öndərin ətrafında yumruq kimi sıx birləşdilər və həm erməni işğalına tutarlı cavab verdilər, onları yerində oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir".*

Həqiqətən də, 1990-1993-cü illərdə həm Ermənistan tərəfindən ardıcıl olaraq hərbi həmlələrə məruz qalan, həm də o zamankı ölkə rəhbərliyi tərəfindən sıxışdırılan, təzyiq göstərilən Naxçıvan tarixin ən çətin sınaqlarını yaşamalı olmuşdur. Böyük dövlətlərdən güc və yardım alan Ermənistanın hərbi müdaxilələrlə yanaşı, muxtar respublikaya enerji verilməsini kəsməsi şəraitində 1992-ci ilin çox sərt keçən qışının çətin sınaqları, mərkəzi hökumətin ikinci cəbhə açmaq adı ilə Naxçıvanı hərbi oyunlara cəlb etmək niyyətini həyata keçirmək üçün atdığı addımlar, Naxçıvanı "kor bağırsaq" kimi kəsib atmaq çağırışları, ölkə üzrə yaranan iqtisadi böhranı Naxçıvanda daha dərinləşdirmək cəhdləri kimi hadisələr həmin dövrün tarixi reallıqlarıdır. Yaranmış mürəkkəb hərbi-siyasi və ağır iqtisadi vəziyyətdən xalqı çıxarmağın ən mümkün, arzuolunan real və şərəfli yolu zəngin təcrübəyə, möhkəm siyasi iradəyə malik olan böyük xilaskar Heydər Əliyevin liderliyi ətrafında birləşməkdən və onun rəhbərliyi ilə mübarizə aparmaqdan ibarət idi.

Həmin tarixi proseslərin yaşandığı bütün gərginliklərin içərisində olmuş, böyük öndərin sınaqlardan çıxmış sadiq silahdaşı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi əsl sədaqət və əməlpərvərlik nümunəsi göstərən Ali Məclisin Sədri Vasif Talıbov da rəsmi dövlət mərasimindəki çıxışında keçilmiş 90 illik yola mərhələlər üzrə nəzər salarkən ümummilli lider Heydər Əliyevin mühüm xidmətlərini dərin məntiqlə və ümumiləşmiş şəkildə, böyük borc duyğusu ilə ifadə etməyi zəruri hesab etmişdir: *"1990-cı ilin iyul ayında Moskvadan Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanı siyasi oyunlardan, ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi".*

Ardı 2-ci səhifədə

*Üçüncüsü* isə Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirlərində haqlı olaraq dəfələrlə etiraf olunduğu kimi, Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə həyata keçirdiyi taleyüklü tədbirlər, qəbul etdiyi tarixi qərarlar, imzaladığı qiymətli siyasi sənədlər, bütövlükdə, Azərbaycan Respublikası üçün əhəmiyyətli və zəruri idi.

**Müstəqilliyin başlanğıc illərində Heydər Əliyevin simasında Naxçıvan Azərbaycanın əsl dövlətçilik məktəbi funksiyasını həyata keçirmişdir.**

**Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü Azərbaycanın dövlət müstəqilliyinin baş məşqinə çevrilmişdir.**

**Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dərsləri geniş mənada Azərbaycanda müstəqil dövlətçilik ideyasının əsas konsepsiyası kimi qəbul olunmağa layiqdir.**

O dövrdə həyata keçirilmiş qərarlar həm Naxçıvan Muxtar Respublikasının taleyində, həm də bütövlükdə, Azərbaycanın gələcək inkişafı üçün böyük tarixi hadisələrdir. Ona görə də Heydər Əliyev mərhələsinin dərsləri diqqət mərkəzinə çəkilmədən nəinki Naxçıvan Muxtar Respublikasının 90 illik inkişaf və mübarizə yolunu, ümumiyyətlə, Azərbaycanın müstəqil dövlətçilik tarixini düzgün qiymətləndirmək mümkün deyildir. Bu, Azərbaycan naminə, müstəqil Azərbaycan dövləti uğrunda aparılan böyük mübarizənin əsas tərkib hissəsi olan möhtəşəm tarixdir. Bu mənada Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi tədbirləri Azərbaycanın müstəqil dövlətçilik tarixinin Heydər Əliyev epoxasının təhlili və qiymətləndirilməsi, ölkə ictimaiyyətinə, yeni nəsillərə çatdırılması baxımından daha böyük meydandır. Ölkə rəhbərinin təntənəli yubiley mərasimində diqqət yetirdiyi hadisələr və faktlar müasirlik işığında Azərbaycanın yaxın tarixinin siyasi-analitik təhlili vasitəsilə ictimai-siyasi proseslərin tam, bütöv halda qavranılmasına uğurla xidmət edir: *"O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlanırdı. O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Milli Məclisi qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi qəbul etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür".*

Bəli, bütün bunlar Heydər Əliyev yolunun Naxçıvan reallıqlarıdır. Ulu öndər Heydər Əliyev yolunun Naxçıvan reallıqları Azərbaycanın müstəqillik dövrünün tarixə çevrilmiş hadisələridir. 90 illik yubiley tədbirləri və mərasimlərində həmin istiqamətlərin üzvi vəhdətdə təqdiminə xüsusi diqqət yetirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 90 illik yubileylə əlaqədar nitqində Naxçıvanla bağlı Azərbaycan tarixində mühüm yer tutmuş digər hadisələrə nəzər salınmış, istiqamətlər müəyyən olunmuşdur. Bu məqamda cənab Prezident Azərbaycanın qədim torpağı olan Zəngəzurun Ermənistana verilməsi məsələsinə ilk dəfə olaraq mükəmməl aydınlıq gətirmişdir. Etiraf etmək lazımdır ki, Zəngəzur məsələsi tarixi fakt olaraq məlum olsa da, bu hadisənin siyasi mahiyyətinin bütün fəlsəfəsi açılmamışdı. Prezident İlham Əliyev Naxçıvanın tarixi reallıqları ilə əlaqədar olan Zəngəzur hadisələrinə aydın və obyektiv şərh vermişdir. Bu tarixi yanaşma təkcə Naxçıvanın muxtariyyət tarixini doğru təsəvvür etmək üçün yox, həm də Azərbaycan tarixində həmin məsələləri müstəqillik baxımından yenidən araşdırarkən məsələyə obyektiv qiymət verilməsinə, baş vermiş hadisələrin mahiyyətinin qlobal səviyyədə açıqlanmasına da xüsusi diqqət yetirməyin zəruriliyini irəli sürür: *"Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə də bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı böyük ədalətsizlik və qərəz əsas rol oynamışdır. Bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölündü. Eyni zamanda böyük türk dünyası iki yerə bölündü. Bu, ədalətsizlikdir, sağalmayan yaradır. Ancaq mən əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımızı qaytaracağıq".*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 90 illik yubiley mərasimindəki çıxışı da tarix və müasirlik baxımından son dərəcə əhəmiyyətlidir. İlk dəfə olaraq bu çıxışda Naxçıvanın muxtariyyət tarixinin konkret tarixi mərhələlər üzrə elmi-siyasi təsnifatı verilmişdir. Naxçıvan Muxtar Respublikasının keçdiyi çətin, keşməkeşli və şərəfli 90 illik inkişaf yolunun əsas konturlarının 5 tarixi mərhələ əsasında təqdim olunması, bu mərhələlərdən hər birinin ictimai-siyasi cəhətdən əsaslandırılması, bütün proseslərə müasirlik baxımından qiymət verilməsi ilə yubiley mərasimində ciddi bir nəzəri-ideoloji baxış meydana qoyulmuşdur.

Ümumiyyətlə, Prezident İlham Əliyevin tarixi nitqində tarix və müasirlik işığında yanaşmalara üstünlük verilməsi Naxçıvan Muxtar Respublikasının keçdiyi inkişaf yolunun, muxtariyyət statusunun mahiyyətinin, habelə müasir mərhələnin nailiyyətlərinin və vəzifələrinin dərin və əsaslı şəkildə təqdimatına şərait yaratmışdır. Prezident İlham Əliyevin müxtəlif vaxtlarda Azərbaycan tarixinin ciddi problemləri haqqındakı əsaslandırılmış mülahizələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikası və onun ətrafında baş vermiş hadisələrə münasibətində də proseslərə çoxaspektli analitik yanaşmalar, obyektivlik, siyasi mahiyyətin dəqiq müəyyən olunması və müasirlik ruhu qabarıq şəkildə ifadə olunur. Bütün bunlar **Azərbaycanın, onun tarixinin və gələcəyinin dövlət başçısı təfəkkürü səviyyəsində konkret və ümumiləşdirilmiş şəkildə qiymətləndirilməsinin örnəkləridir.**

Bu mənada Prezident İlham Əliyevin 90 illik yubiley mərasimində ifadə etdiyi düşünülmüş müddəalar Naxçıvan Muxtar Respublikasının, bütövlükdə, Azərbaycanın XX-XXI əsrlər tarixini öyrənənlər, yazanlar, tədqiq edənlər, təbliğat işləri ilə məşğul olanlar üçün açardır. Doxsan ildə keçilmiş yolun bütün dolğunluğu ilə təqdim olunmasının hesabatı kimi meydana çıxmış Naxçıvanın muxtariyyət tarixinin mərhələlər üzrə təqdimi də tarixşünaslar, Azərbaycan tarixini tədris edənlər üçün mühüm əhəmiyyətə malik əsaslı bələdçidir. Bundan başqa, Zəngəzur hadisələri ilə, təxminən, eyni vaxtda qəbul edilmiş Moskva və Qars müqavilələrinə xüsusi diqqət yetirilməsi də təsadüfi olmayıb, mürəkkəb şəraitdə həmin beynəlxalq müqavilələrin Naxçıvanın muxtariyyət statusu qazanmasındakı, regionun sonrakı taleyindəki müstəsna əhəmiyyətinə verilən siyasi qiymətin obyektiv ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin çıxışında XX əsrin əvvəllərində bu diyarda Naxçıvanın ərazisinin erməni işğalından xilas edilməsində böyük igidlik göstərmiş, muxtariyyət uğrunda fəal mübarizə aparmış və yerli əhali içərisindən çıxmış şəxsiyyətlərin, Azərbaycan oğullarının adlarının çəkilməsi, xidmətlərinə yüksək qiymət verilməsi də yubiley tədbirinin tarixi hesabatı kimi səslənmişdir: *"Məşhur Naxçıvan xanlarının nəslindən olan Cəfərqulu xan, Kalbalı xan və Rəhim xan yerli silahlı dəstələrə ümumi komandanlığı həyata keçirirdilər. Şərur taborunun komandanı Fətulla Hüseynov, Sədərək taborunun komandanı Kəblə Muxtar, Cəhri taborunun komandanı Kəblə Kərim erməniləri geri oturda bilmiş, Vətənə xidmət nümunələri göstərmişlər.*

*...Yazıçı-publisist Əli Səbri Qasımovun və Naxçıvanın ləyaqətli oğlu Behbudağa Şahtaxtinskinin adını xüsusi qeyd etmək istəyirik. Behbudağa Şahtaxtinski Sovet Azərbaycanı hökumətinin ədliyyə komissarı olmasına baxmayaraq, Naxçıvanın Ermənistana verilməsi barədə bəyanata etiraz əlaməti olaraq Naxçıvana gəlmiş, yerli əhalinin kütləvi etirazını təşkil edərək mərkəzi hakimiyyətin Ermənistanın xeyrinə qəbul etdiyi qərarın qarşısını almışdı".*

Beləliklə, 90 illik yubiley mərasimləri Naxçıvanın timsalında Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizənin real qəhrəmanlarını geniş ictimaiyyətə təqdim etmişdir. Bütövlükdə isə Naxçıvan Muxtar Respublikasının yubileyi geniş mənada Azərbaycanla əlaqədar mühüm məsələlərin ictimai müzakirəsinə, inkişafın yeni mərhələsinin qiymətləndirilməsinə və gələcək vəzifələrin müəyyən olunmasına daha bir meydan açmışdır.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi tədbirləri sırasında qədim tarixə malik "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin açılışı da ikigünlük rəngarəng səfərin tarixilik baxımından özünəməxsusluğunu təmin etmək üçün əhəmiyyətli olmuşdur. Müxtəlif rəvayətlərdə Nuh Peyğəmbərlə, Makedoniyalı İsgəndərin yürüşlərilə əlaqədar adıçəkilən, tarixi qaynaqlarda izi qalan Naxçıvanqalanın – Nuhdabanın yenidən bərpa edilərək həyata vəsiqə alması bu diyarın qədim tarixinin yaşadılması istiqamətində atılmış mühüm addımlardan biridir. Bu, Naxçıvan diyarının bəşər sivilizasiyasının ilkin beşiklərindən biri olduğunu diqqət mərkəzinə çəkən qiymətli mədəniyyət hadisəsi olaraq yubiley tədbirlərini zənginləşdirmişdir.

Bunlara görə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi müstəqillik dövrü Azərbaycan tarixinin əlamətdar hadisəsidir. Naxçıvan Muxtar Respublikasında yubiley münasibətilə geniş miqyasda keçirilmiş tədbirlər, böyük quruculuq yolunun yeni inkişaf mərhələsini əks etdirən rəsmi açılışlar geniş mənada Azərbaycanın dövlət müstəqilliyinin reallıqlarından ibarətdir. Naxçıvan Beynəlxalq Hava Limanının yeni inzibati binasının açılışı və müasir aviasiya texnologiyalarının təqdimatı blokada şəraitində olan muxtar respublikanın əlaqələrinin genişləndirilməsi imkanlarının daha da artırılmasının əhəmiyyətli göstəricisidir. Eyni zamanda bu tədbir regionda dünya strukturlarına uyğun səviyyədə hava nəqliyyatı məkanı yaradılmasına da işıq salır. Naxçıvan Biznes Mərkəzində yaradılan şəraitlə tanışlıq, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi, Arpaçay Su Elektrik stansiyalarının, Kəngərli Rayon Mərkəzi Xəstəxanasının açılışı mərasimləri blokada şəraitində yüksək templərlə inkişaf etməyin nümunəsini göstərən Naxçıvan Muxtar Respublikasının reallıqlarıdır.

Naxçıvan Muxtar Respublikasının hərbi hissələrinə, düşmənin səngəri və süngüsü ilə üzbəüz qalan regionda yeni yaradılmış Naxçıvan əlahiddə ordusuna daxil olan yeni texnikanın və müasir silahların nümayişi ölkəmizin etibarlı müdafiəsinin təmin edilməsinə ölkə rəhbərinin qayğısının əməli ifadəsidir. Prezident İlham Əliyevin yubiley mərasimində dediyi kimi, *"ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda əlahiddə ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir"*. Və bunlar iyirmi ilə yaxın müddət ərzində Naxçıvan Muxtar Respublikasında ardıcıl olaraq həyata keçirilmiş böyük quruculuq proqramlarının, o cümlədən ordu quruculuğunun genişmiqyaslı infrastruktur layihələrinin, atılmış strateji addımların üzvi tərkib hissəsi, məntiqi davamıdır. Bu, yenidən qurulmuş, bütün istiqamətlər üzrə inkişaf etmiş müasir Naxçıvanın real simasıdır. Rəsmi açılışların ictimai həyatın bütün sahələrini əhatə etməsi Naxçıvan Muxtar Respublikasında hərtərəfli inkişafın daha da genişləndiyini və möhkəmləndiyini nümayiş etdirir. Regionda enerji resursları ilə təminolunma problemlərinin, ərzaq təhlükəsizliyinin tam həll edilməsi, aqrar sahə ilə yanaşı, sənayeləşməyə geniş meydan açılması, sosial məsələlərə xüsusi diqqət yetirilməsi, hərbi qüdrətin daim artırılması ümumi ahəngdar inkişafın real nəticələridir.

Yubiley tədbirlərində səsləndiyi kimi, regionda baş verən böyük dəyişikliklər və yeniliklər ölkəmizin ümumi inkişafına layiqli töhfələrdir, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dinamik inkişaf dövrünün mühüm hadisələridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Arpaçay Su Elektrik Stansiyasının açılışı mərasimində dediyi aşağıdakı sözlər Naxçıvan reallıqlarının müasir Azərbaycan gerçəkliyindəki yerini və rolunu daha aydın şəkildə təsəvvür etməyə imkan verir: *"Bu gün Naxçıvanın reallıqları belədir ki, su elektrik stansiyalarının fəaliyyəti sahəsində Naxçıvanın tam enerji təminatı həll edilib... Bu gün Azərbaycan reallıqları bundan ibarətdir: Vaxtilə başqa ölkələrdən elektrik enerjisini almaq üçün səylər göstərmiş Azərbaycan bu gün Naxçıvandan Türkiyəyə elektrik enerjisi ixrac edir... Gələcəkdə Naxçıvanın enerji potensialının artırılması üçün əlavə tədbirlərin görülməsi də nəzərdə tutulur. Buna ehtiyac var, çünki əhali artır, Naxçıvanın əhalisi artıq 430 minə yaxındır. Naxçıvanın sənaye istehsalı artır, yeni müəssisələr işə salınır, sosial məsələlər həllini tapır... Muxtar respublikanın enerji təhlükəsizliyi məsələləri tamamilə həllini tapıbdır... Və deyə bilərəm ki, bu, tarixi hadisədir".*

Qeyd olunanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında Ali Məclisin Sədri Vasif Talıbovun düşünülmüş, məqsədyönlü rəhbərliyi ilə ardıcıl olaraq baş verən böyük quruculuq hadisələrinə, hərtərəfli ahəngdar və dinamik inkişaf proseslərinə verdiyi yüksək qiymətin ifadəsidir. Naxçıvan Muxtar Respublikası bu yüksək qiyməti Azərbaycan dövləti qarşısındakı sabit mövqeyi, ulu öndər Heydər Əliyevin əbədiyaşar ideallarına dərin sədaqəti, malik olduğu coğrafiyadakı məsuliyyəti, böyük əməllərdən, halal zəhmətdən doğan əzmkarlığı ilə qazanmışdır.

**Baş verən böyük dəyişikliklər və yeniliklər Naxçıvan Muxtar Respublikasının ölkə rəhbərinə, müstəqil Azərbaycan dövlətinə məsuliyyətli və şərəfli bir hesabatıdır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının inkişafına dair qəbul etdiyi qərarlar bu qədim və həmişəcavan diyarda tarixinin dərinliklərinə və inkişafının yeni zirvələrinə doğru gedən böyük hərəkata təkan verir, inkişaf proseslərini daha da irəli aparır. Prezident İlham Əliyevin imzaladığı "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" (14 yanvar 2014-cü il), "Naxçıvan Muxtar Respublikasında "Arpaçay-2" Su Elektrik Stansiyasının maliyyələşdirilməsi haqqında" (14 mart 2014-cü il); "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında" (5 aprel 2014-cü il); "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" (10 aprel 2014-cü il); "Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqlarla təchiz olunması ilə bağlı tədbirlər haqqında" (11 aprel 2014-cü il) sərəncamları Azərbaycanın ayrılmaz parçası olan və böyük sürətlə inkişafını uğurla davam edən Naxçıvanın yeni həyatına dövlət səviyyəsində göstərilən böyük qayğıdan xəbər verir.

Bunu da xüsusi qeyd etməyi lazım bilirəm ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi dövlət qayğısından daha böyük inkişafa xidmət göstərmək baxımından həmişə yaradıcılıqla və maksimum qənaətlə istifadə etməyin, mümkün qədər çox və keyfiyyətli işlər həyata keçirməyin də nümunəsini göstərir. Naxçıvanın daxili imkanlarından, ehtiyatlarından, iqtisadi əlaqələrindən əldə olunan resurslar da ardıcıl olaraq böyük inkişafa və sosial rifahın daha da yaxşılaşdırılmasına ünvanlanır. Naxçıvanda böyük quruculuq proseslərinin əsas hərəkətverici qüvvəsi olan insan amilinin, mənəviyyat faktorunun, məsuliyyət duyğusunun da əsas prinsiplər səviyyəsində formalaşması inkişafa dərin ictimai məzmun gətirir.

**Nəticədə, həyata keçirdiyi böyük işlərin daxili-mənəvi qürurunu yaşayan insanların əlləri ilə iyirmi ilə yaxın dövrdə aparılmış genişmiqyaslı quruculuq tədbirlərinin sayəsində Yeni Naxçıvan yaradılmışdır. Böyük sürətlə, zövqlə, ürəkdən gələn doğmalıq hissləri ilə, məqsədyönlü şəkildə hər gün yenilənən müasir Naxçıvan Yeni Azərbaycanın möhtəşəm əsərlərindən birinə çevrilmişdir.**

"Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2014-cü il tarixli Sərəncamında da haqlı olaraq deyildiyi kimi: "Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sahəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır".

**Naxçıvan Muxtar Respublikasında müasir səviyyədəki yüksək inkişaf Azərbaycanda Heydər Əliyev yolunun böyük imkanlarının və geniş üfüqlərinin möhtəşəm təntənəsidir.**

**Heydər Əliyev yolu Azərbaycanın dünəni kimi, bu gününün də böyük reallıqları və daha parlaq sabahları deməkdir.**

*Bütün bunlar Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının bundan sonra da böyük addımlarla irəliləyib inkişaf edəcəyinin real təminatıdır. Bu isə torpağını və məmləkətini sevən hər bir Azərbaycan vətəndaşının böyük arzusu və inamıdır.*

**İsa HƏBİBBƏYLİ**
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik***

***"Azərbaycan" qəzeti, 16 aprel 2014-cü il***

# “Heydər Əliyev və Naxçıvan muxtariyyəti” mövzusunda açıq dərs keçilib



*Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Özəl Universiteti tələbələrinin iştirakı ilə açıq dərs keçilib.*

Əvvəlcə Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev muzeydə keçilən açıq dərslərin və gənclərimizin muzeylə tanışlığının əhəmiyyəti haqqında danışıb.

Sonra Naxçıvan Özəl Universitetinin müəllimi Elnur Kəlbizadə “Heydər Əliyev və Naxçıvan muxtariyyəti” mövzusunda danışıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il yanvarın 14-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında imzaladığı Sərəncam və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında 2014-cü ili Naxçıvan Muxtar Respublikasında “Muxtariyyət ili” elan etməsi bu hadisənin Azərbaycan siyasi tarixinin ən şanlı səhifələrindən biri olduğunu göstərməkdədir.

Ümummilli lider Heydər Əliyevin ***“Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur”*** fikirlərini xatırladan mühaziməçi muxtariyyətin qorunub saxlanılmasında dahi rəhbərin misilsiz fəaliyyətindən danışıb. Vurğulanıb ki, bu gün Naxçıvan tarixinin üçüncü intibahını yaşayır və bu intibah prosesləri ümummilli lider Heydər Əliyevin ideyalarının ləyaqətlə reallaşdırılmasının nəticəsidir.

Açıq dərsin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.

Sonra tələbələr Heydər Əliyev Muzeyindəki eksponatlarla tanış olublar. Onlara muzeydəki eksponatlar haqqında ətraflı məlumat verilib.

# Gənclərin hərbi xidmətə yola salınması davam edir

***Aprelin 16-da Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib.***



“Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 4 mart 2014-cü il tarixli Sərəncamına əsasən, hərbi xidmətə çağırılan gənclərin yola salınması münasibətilə təşkil edilmiş mərasimi giriş sözü ilə idarənin rəis müavini, polkovnik-leytenant Zahid Əliyev açıb.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Şəhər Təşkilatının sədri Zahid Cəfərov və Naxçıvan Şəhər Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov çıxış edərək bildiriblər ki, Milli Ordumuzda xidmət etmək Vətənə ən şərəfli xidmətdir. Çünki bu ordu Azərbaycanımızın müstəqilliyinin, onun təhlükəsizliyinin qoruyucusudur. Ancaq bu müstəqillik heç də asan başa gəlməyib. Köksündə boy atdığımız Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən yüzlərlə qəhrəman oğul və qızlarımız olub. Bugünkü gənclik xidmət dövrü hərbi texnikanın sirlərinə daha yaxşı yiyələnməli və istənilən anda düşmənə layiqli cavab verməyə hazır olmalıdır.

Övladını hərbi xidmətə yola salan valideyn Rəhman Kərimov bu günün qəlbində qürur hissi oyatdığını dilə gətirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Məmməd Babayev torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaqlarına, verilən əmrləri vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan şəhər prokurorunun müavini Qalib İsmayılov, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahov və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Elxan Əliyev çıxış edərək xalq-ordu birliyinin sarsılmaz vəhdətindən danışıb, hərbi xidmətə yola salınan bütün çağırışçıları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, həmin gün Babək rayonunda da çağırışçıların hərbi xidmətə yola salınması mərasimi keçirilib.

**Xəbərlər şöbəsi**

***Dünən Sədərək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə bələdiyyələrin fəaliyyəti ilə bağlı maarifləndirici tədbir keçirilib.***

# Bələdiyyələrin fəaliyyəti müzakirə olunur



Tədbiri giriş sözü ilə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq rayonda bələdiyyələrin fəaliyyəti üçün yaradılan şəraitdən danışıb, yerli özünüidarəetmə orqanlarına göstərilən diqqət və qayğı müqabilində aktiv fəaliyyətin gözlənildiyini deyib.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxışında bildirib ki, ölkəmizdə, o cümlədən muxtar respublikada yerli özünüidarəetmə institutunun yaradılması və onlara verilən imtiyazlar dövlətin öz xalqının rahat yaşayışını təmin etmək məqsədinə xidmət edir.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəli təsiri istiqamətində görülən işlər çərçivəsində ötən dövr ərzində muxtar respublika üzrə fəaliyyət göstərən bələdiyyələr üçün təşkil olunan seminar-müşavirələr Sədərək rayonunu da əhatə edib. Rayonda fəaliyyət göstərən bələdiyyələrə müvafiq normativ-hüquqi aktların tələbləri izah olunub və onlar zəruri metodik vəsaitlərlə təmin ediliblər. Rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrə kargüzarlıq işlərinin aparılması üçün müvafiq köməkliklər göstərilməklə hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsi diqqət mərkəzində saxlanılıb.

Bildirilib ki, bu rayonda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 16 dəfə araşdırma aparılıb və aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə hərtərəfli metodik köməkliklər göstərilib. Lakin seminar-müşavirələr, yoxlamalar, əməli köməkliklər zamanı edilmiş tövsiyə və təkliflərə baxmayaraq, bu gün rayon üzrə bələdiyyələrin bir neçəsinin fəaliyyətində hələ də nöqsanlar və çatışmamazlıqlar qalmaqdadır. Təəssüflər olsun ki, verilmiş tövsiyə və tapşırıqlardan sonra bələdiyyələrdə hansı işlərin görüldüyünü müşahidə etmək üçün təkrar olaraq yenidən bələdiyyələrdə araşdırmalar aparılarkən müəyyən olur ki, əməkdaşlarımız tərəfindən görülən işlər olduğu kimi hərəkətsiz saxlanılıb və heç bir iş davam etdirilməyib, nöqsanlar aradan qaldırılmayıb. Hər bir bələdiyyə qeyd olunanlardan nəticə çıxarmalı və fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun təşkil etməlidir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

**✍ Səbuhi HÜSEYNOV**

***Ordubad rayonundakı Sabirkənddə “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları” mövzusunda tədbir keçirilib. Tədbiri Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.***

# Maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu” mövzusunda çıxış edərək bildirib ki, cəmiyyətin inkişafında ailənin üzərinə mühüm vəzifələr düşür. Ailə öz mahiyyətini və funksiyasını o zaman bütövlükdə yerinə yetirmiş olur ki, hər bir ailə üzvü üzərinə düşən vəzifələri lazımınca yerinə yetirsin. Bu mənada qadın böyük rola malikdir. Ailə dəyərlərini qoruyub saxlayan, nəsildən nəslə ötürən qadındır. O, övladının maddi ehtiyaclarını təmin etməklə yanaşı, onu aydın düşüncəyə, saf əqidəyə və ədəb-ərkana yiyələndirməli, bu yolla onun gələcəyini qurmalıdır. Bu, cəmiyyətin gələcəyini qurmaq deməkdir.

Vurğulanıb ki, milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub saxlamaq və onların icrasına nəzarət etmək, televiziya və internet kimi kütləvi informasiya vasitələrindən istifadəni çərçivəyə salmaq kimi vəzifələr də ananın öhdəsindədir. Əgər ana uşağın təhsilinə ciddi yanaşmasa, sözsüz ki, cəmiyyətə savadsız bir insan təhvil verəcəkdir. Bir sözlə, ana uşağın gələcək taleyi üçün böyük məsuliyyət daşıyır. Ona görə də yeni nəslin gələcəkdə quracağı ailənin bütövlüyünü qoruyub saxlamaq üçün ana övladlarına milli-mənəvi dəyərlərin öyrədilməsini, onların sağlam yaradıcı əməyə alışmalarını, zərərli vərdişlərdən çəkinmələrini, təhsil-tərbiyə məsələlərini, ümumiyyətlə, sağlam həyat tərzi seçmələrini daim diqqət mərkəzində saxlamalıdır.

“Qadın hüquqları” mövzusunda Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri Tural Hüseynov çıxış edərək bildirib ki, qadınların əmək və məişət şəraitinin əsaslı surətdə yaxşılaşdırılması üçün onlara lazımi imkan yaradılması kimi mühüm sosial vəzifələrin yerinə yetirilməsinin hüquqi əsasları mövcuddur. Nikah qeydə alınarkən zəruri surətdə riayət olunmalı şərtlər, qadınların hüquqları Azərbaycan Respublikasının Ailə Məcəlləsində göstərilib. Belə şərtlərin qoyulmasında əsas məqsədlərdən biri möhkəm ailənin yaranmasına kömək etməkdən, nikahın bağlanmasına düşünülməmiş münasibətlərin qarşısını mümkün qədər almaqdan ibarətdir. Qadın və kişi ailə münasibətlərində bərabər şəxsi və əmlak hüququna malikdirlər. Bu, ailə qanunvericiliyinin mühüm prinsipial müddəasıdır. Nikaha daxil olarkən ailə qanunvericiliyi ilə müəyyən edilmiş nikah müqaviləsinin bağlanması da vacib hesab olunmalıdır. Bu saziş nikah dövründə və nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edir, qadınların əlverişsiz şəraitə düşməsinin qarşısını alır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva “Keser əməliyyatı və onun ana və uşağa mənfi təsiri” mövzusunda çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq barədə slayd vasitəsilə tədbir iştirakçılarına məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# İdmanın inkişafına həsr olunmuş konfrans

Naxçıvan Dövlət Universitetində “Ulu öndər Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı” mövzusunda konfrans keçirilmişdir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr edilmiş konfransı giriş sözü ilə universitetin rektoru, professor Saleh Məhərrəmov açaraq Azərbaycanda, o cümlədən muxtar respublikada idmanın inkişafına göstərilən diqqət və qayğıdan bəhs etmişdir.

Universitetin Tələbə-İdman Klubunun sədri, Fiziki tərbiyə və idman oyunları kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Məmmədəli Rəhimov “Universitet idmançıları respublika birinciliklərində və beynəlxalq arenada” mövzusunda məruzə edərək bildirmişdir ki, universitetin futbol, voleybol, badminton, şahmat komandaları, cüdo, sərbəst güləş üzrə idmançılarımız muxtar respublika birinciliyində, Azərbaycan çempionatında və beynəlxalq yarışlarda dəfələrlə uğurlar əldə etmişdir.

Universitetin Tələbə-İdman Şurasının sədri, bədən tərbiyəsi ixtisasının II kurs tələbəsi Nicat Allahverdiyev çıxış edərək tələbə-idmançılar adından universitetdə idmanın müxtəlif növlərinin inkişafı üçün yaradılan şəraitdən danışmışdır.

Sonra tələbələr arasında şahmat birinciliyinə start verilmişdir. Qeyd edək ki, bütün fakültələrin təmsil olunduğu bu yarışda 40 şahmatçı qələbə uğrunda mübarizə aparacaq.



# Son tamamlama işləri görülür

Babək qəsəbəsində inşa edilən yeni uşaq bağçası binasının tikintisində son tamamlama işləri aparılır.

“Dizayn” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikinti işlərinin həyata keçirildiyi obyektin ətrafında hazırda abadlıq işləri görülür.

160 yerlik uşaq bağçası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Ümumi ərazisi 1000 kvadratmetr olan binanın zirzəmi hissəsində yeməkxana, qarderob, tibb xidməti otağı, yataq otağı və oyun zalı yerləşəcək. Birinci mərtəbədə valideynlər otağı, müdiriyyət, ikinci və üçüncü mərtəbələrin hər birində metodik kabinet olmaqla, bütün mərtəbələrdə yataq otağı və oyun zalları fəaliyyət göstərəcək.

# Naxçıvandan Qəbələyə aviareys açılıb

Naxçıvan Beynəlxalq Hava Limanında yaradılan şərait son illər bu ünvandan ölkəmizin bəzi regionlarına və xarici ölkələrə aviareyslərin təşkil olunmasına imkan verib. Bu, blokada şəraitində yaşayan naxçıvanlıların və Naxçıvana gələn qonaqların hava xəttindən istifadəsinə şərait yaradıb. Hava limanının Daşımaların Təşkili Xidmətinin rəisi Xanməmməd Vəliyevdən aldığımız məlumata görə, may ayının 23-dən sərnişinlər daha bir reysdən istifadə etmək imkanı qazanacaqlar. Bu, Qəbələ-Naxçıvan-Qəbələ reysidir. Həftənin beşinci və bazar günləri təşkil ediləcək reysdə “EMBRAER-170” tipli təyyarədən istifadə olunacaq. Sərnişin təyyarəsinin tutumu 76 nəfərdir. Biletlərin qiyməti 52 manata başa gələcək.

Saat $18^{45}$-də Qəbələdən sürət götürən təyyarə 55 dəqiqə uçuş müddətini başa vuraraq Naxçıvan Beynəlxalq Hava Limanına enəcək. Buradan uçuş isə $20^{30}$-da olacaq.

Xanməmməd Vəliyev onu da bildirdi ki, artıq bu reysə biletlərin satışına başlanılıb. Bu günədək Naxçıvan Beynəlxalq Hava Limanından ölkəmizin ərazisində Bakı və Gəncə şəhərlərinə, həmçinin Rusiya Federasiyasının paytaxtı Moskva, Türkiyə Respublikasının İstanbul şəhərlərinə təyyarələr uçurdu. Qəbələ aviareysi sonuncu deyil. Yaxın gələcəkdə Naxçıvan-Ərzurum-Naxçıvan və Naxçıvan-Kiyev-Naxçıvan istiqamətində də aviareyslərin təşkili mümkün olacaq.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada əhalinin icbari dispanserizasiyası davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il fevralın 17-dən mayın 1-dək bütün ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi barədə tapşırığına uyğun olaraq, muxtar respublikanın 7 rayon mərkəzi, 3 kənd sahə xəstəxanası, 90 həkim ambulatoriyası və 105 feldşer-mama məntəqəsi, Naxçıvan şəhərində isə 1 poliklinika, 4 ixtisaslaşdırılmış dispanser (Endokrinoloji, Dəri-Zöhrəvi, Psixi Xəstəliklər və Ağciyər Xəstəlikləri dispanserləri), 4 mərkəz (Onkoloji, Kardioloji, Stomatoloji və Doğum mərkəzləri), 2 xəstəxana (Naxçıvan Muxtar Respublikası Göz və Ə.Əliyev adına Mərkəzi Uşaq xəstəxanaları) kollektivləri tərəfindən əhalinin kütləvi müayinəsi tədbirləri davam etdirilir.

Aprel ayının 15-dək qeyd olunan müəssisələr tərəfindən 215 min 186 nəfər profilaktik tibbi müayinədən keçirilmişdir. Bu müddətdə 29 min 523 nəfər ambulator, 148 nəfər isə stasionar müalicəyə qəbul olunmuş, 20 nəfər Bakı şəhərinə müalicəyə göndərilmişdir.

Muxtar respublikanın 219 yaşayış məntəqəsindən 145-də əhalinin müayinələri başa çatdırılmışdır. Belə məntəqələrdən biri də Culfa rayonundakı Əlincə kəndidir. Dünən kənd feldşer-mama məntəqəsində icbari profilaktik müayinələrə yekun vurulmuşdur. Cari ildə istifadəyə verilən səhiyyə müəssisəsində yaradılan şərait burada ilkin tibbi xidmətin göstərilməsinə imkan verir. Kənd mərkəzində məntəqə üçün 4 iş otağı ayrılmış, səhiyyə ocağı lazımi dərman preparatları və peyvənd çantaları ilə təmin edilmişdir. Məntəqədə müayinə olunan kənd sakini Cəmilə Abbasova bildirdi ki, kənddəki səhiyyə müəssisəsinin müasir səviyyədə fəaliyyət göstərməsi əhalinin saglamlığının qorunmasında mühüm əhəmiyyət kəsb edir. Əhalinin kütləvi şəkildə müayinəsi ilə bağlı bu aksiyanın təşkil olunması haqqında bilavasitə Prezidentin tapşırıq verməsi bir daha sübut edir ki, dövlətimizin başçısı hər bir Azərbaycan vətəndaşının yanındadır və onu firavan, sağlam görmək istəyir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Nağdsız ödənişlərin üstünlükləri təbliğ olunur



Naxçıvan Dövlət Universiteti Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi ilə birgə seminar-məşğələ keçirib. Seminar-məşğələdə plastik kartların növləri, ticarət, xidmət obyektlərində POS-terminallardan istifadə edilməsi, internet vasitəsilə kommunal xərclərin ödənişi və mobil telefonlara danışıq kartlarının yüklənməsi, eləcə də digər xərclərin ödənilməsi üçün internet üzərindən onlayn ödənişlərin edilməsi ilə bağlı məlumatlandırma aparılıb.

Tədbirdə universitetin rektoru, professor Saleh Məhərrəmov çıxış edərək bu kimi tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirilib ki, nağdsız ödənişlər vəsaitlərin dövriyyəsinin sürətləndirilməsində, nağd pulların çapı, daşınması, saxlanılması və təsərrüfat əməliyyatlarının xərclərinin azaldılmasında, nəticədə isə iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır.

Vergilər Nazirliyinin şöbə rəisləri Mirhüseyn Seyidov, Rəşad Əliyev, Mübariz Əhmədov çıxışlarında nağdsız ödənişlərin üstünlükləri barədə məlumatlar veriblər. Vurğulanıb ki, nağdsız ödəniş sisteminin inkişafı, nağdsız dövriyyənin genişləndirilməsi cəmiyyətdə maliyyə sabitliyinin qorunub saxlanılması baxımından zəruridir.

Bu gün muxtar respublikada idarə, müəssisə və təşkilatlara ödənilən rüsumların, kommunal haqların və ticarət obyektlərində aparılan əməliyyatların POS-terminal və internet vasitəsilə həyata keçirilməsi üçün lazımi şərait yaradılmışdır. Bu sahədə ödənişlərin sayı ildən-ilə artacaq. Bununla da, insanlar öz rahatlıqlarını təmin etməklə yanaşı, həm də vergidənyayınma hallarının qarşısının alınmasında bir vətəndaş kimi öz vəzifələrini ortaya qoymuş olacaqlar.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi Elçin Əliyev ödəniş kartlarının növləri, ödəniş kartlarının öz istifadəçilərinə verdiyi imkanlar və bu kimi digər məsələlər haqqında seminar iştirakçılarına məlumat verib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Mina QASIMOVA**

## Naxçıvan Dövlət Kukla Teatrı Tacikistandadır

Naxçıvan Dövlət Kukla Teatrı xarici ölkələrdə keçirilən teatr festivallarında ölkəmizi uğurla təmsil edir. Teatr hazırda Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində keçirilən “Kuklaların fantaziyası” IV Beynəlxalq Kukla Teatrları Festivalında iştirak etmək üçün bu ölkədədir. Qeyd edək ki, ənənəvi olaraq 2 ildən bir keçirilən bu festivalda Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı artıq üçüncü dəfədir, iştirak edir. Teatr 2010-cu ildə Düşənbədə keçirilən festivalda Səməd Canbaxşıyevin “Cik-cik xanım”, 2012-ci ildə isə Səbuhi Hüseynovun “Möcüzəli adanın sakinləri” tamaşasını təqdim etmişdir.

Naxçıvan Dövlət Kukla Teatrı budəfəki festivalda dahi bəstəkarımız Üzeyir Hacıbəylinin “Arşın mal alan” tamaşasını göstərəcəkdir. Tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının xalq artisti Yasəmən Ramazanova, quruluşçu rəssamı isə Rəfael Qədimovdur.

Kollektivin üçüncü dəfə iştirak etdiyi bu festivala İran İslam Respublikasının, Rusiya Federasiyasının, Qazaxıstanın, Qırğız Respublikasının və başqa ölkələrin kukla teatrlarının kollektivləri də qatılmışlar.

**Əli RZAYEV**

## Mirzə Cəlil dühasının işığında

Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində “Molla Nəsrəddin” jurnalının nəşrinin 108-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Naxçıvan Dövlət Universitetində filologiya istiqaməti üzrə təhsil alan tələbələr iştirak ediblər.

Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova “Molla Nəsrəddin” jurnalını Azərbaycan ədəbiyyatı və mətbuatı tarixinin şərəfli səhifəsi kimi dəyərləndirərək jurnalın Azərbaycan ictimai-siyasi fikir tarixində, milli şüurun və siyasi təfəkkürün formalaşmasında, milli ədəbiyyatın inkişafındakı rolundan danışıb.

Universitetin Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərli “Molla Nəsrəddin” jurnalının nəşri tarixi barədə məruzə edərək Şərqdə ilk satirik mətbu orqan olan bu jurnalın əsas yaradıcı heyəti, qayəsi, janr və mövzu rəngarəngliyi, əsas tənqid hədəfləri, mollanəsrəddinçi ədəbi məktəb yaratmaqla mətbuat və ədəbiyyat tariximizdə əvəzolunmaz yer tutması ilə bağlı məlumat verib.



Qeyd olunub ki, akademik İsa Həbibbəylinin başçılığı ilə mirzəcəlilşünaslıq istiqamətində elmi tədqiqatlar aparılır, görkəmli dramaturq, naşir-publisist Cəlil Məmmədquluzadə və mollanəsrəddinçilərin həyat və fəaliyyəti, ədəbi irsi, jurnalın nəşri tarixi ilə əlaqədar yeni elmi faktlar və arxiv materialları, əlyazmalar elmi-ədəbi ictimaiyyətə təqdim olunur.

Bildirilib ki, ustad Mirzə Cəlil və onun mollanəsrəddinçi məsləkdaşlarının Azərbaycançılıq məfkurəsi, milli istiqlal və bəşəri duyğular uğrunda mübarizələri həmişəyaşardır, gələcək nəsillər üçün örnəkdir.

Sonda tələbələrin sualları cavablandırılıb, “Molla Nəsrəddin-108” sərgisinə baxış olub.

**Mehriban SULTAN**

## Elan

Naxçıvan Müəllimlər İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda respublika elmi konfransı keçiriləcəkdir.

Konfransda aşağıdakı bölmələr üzrə məruzələr dinləniləcəkdir:

*1. Heydər Əliyev və müasir təhsil*
*2. Yeni pedaqoji texnologiyalarda pedaqogika və psixologiyanın rolu*
*3. Təhsilin müasir tələbləri və tərbiyə məsələləri*
*4. Fənlərin tədrisi texnologiyaları.*

Konfransda respublikanın ali və orta təhsil müəssisələrinin əməkdaşları məruzələrlə çıxış edə bilərlər.

Tezislər konstruktiv, konkret və konfransın mövzusuna uyğun olmalıdır və 1 santimetr intervalla, 14 şriftlə (Times New Roman), formatı – soldan, sağdan, yuxarıdan, aşağıdan 2 santimetr olmaq şərti ilə 1-2 səhifə həcmində təqdim olunmalıdır. Müəlliflərin adı, soyadı, elmi dərəcəsi, iş yeri məqalənin adının altında yazılmalıdır.

Konfransın materialları məcmuə şəklində nəşr olunacaqdır.

Məruzələr Naxçıvan Müəllimlər İnstitutunun elmi hissəsində qəbul olunur.

Konfrans 7 may 2014-cü il tarixdə saat $11^{00}$-də Naxçıvan Müəllimlər İnstitutunun akt zalında keçiriləcəkdir.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1.***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefonlar: (036) 545-32-02***
***(036) 544-04-29, Faks: (036) 545-32-02***

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər və qadın bərbəri peşələri üzrə kurslar təşkil edir. Tədrisin müddəti 2 aydır.

Muxtar respublikanın rayonları üzrə tələbat aşağıdakı kimidir:

| | Kəndin adı | Vakant yer | |
|---|---|---|---|
| | | Bərbər | Qadın bərbəri |
| | **Şərur rayonu üzrə** | | |
| 1 | Qorçulu | 1 | 1 |
| 2 | Yengicə | - | 1 |
| 3 | Siyaqut | - | 1 |
| 4 | Yuxarı Daşarx | - | 1 |
| 5 | Qarxun | 1 | 1 |
| 6 | Muğancıq-Mehrab | - | 1 |
| 7 | Yuxarı Aralıq | - | 1 |
| 8 | Maxta | - | 1 |
| 9 | Çomaxtur | - | 1 |
| 10 | Danyeri | 1 | - |
| 11 | Aşağı Daşarx | - | 1 |
| 12 | Dəmirçi | - | 1 |
| 13 | Gümüşlü | 1 | 1 |
| | **Cəmi:** | **4** | **12** |

| | Babək rayonu üzrə | | |
|---|---|---|---|
| 1 | A.Uzunoba Kənd Mərkəzi | 1 | - |
| 2 | Sirab Kənd Mərkəzi | 1 | - |
| 3 | Nəzərabad Kənd Mərkəzi | - | 1 |
| | **Cəmi:** | **2** | **1** |
| | **Ordubad rayonu üzrə** | | |
| 1 | Biləv | 1 | 1 |
| 2 | Parağa | 1 | - |
| 3 | Behrud | - | 1 |
| 4 | Dəstə | - | 1 |
| 5 | Aşağı Əylis | 1 | - |
| 6 | Yuxarı Əylis | 1 | 1 |
| 7 | Bist | - | 1 |
| 8 | Gənzə | 1 | 1 |
| 9 | Sabirkənd | - | 1 |
| 10 | Çənnəb | 1 | 1 |
| 11 | Xurs | 1 | 1 |
| 12 | Ələhi | - | 1 |
| 13 | Nürgüt | 1 | 1 |
| | **Cəmi:** | **8** | **11** |

| | Culfa rayonu üzrə | | |
|---|---|---|---|
| 1 | Xanəgah | 1 | 1 |
| 2 | Milax | 1 | 1 |
| 3 | Ləkətağ | - | 1 |
| 4 | Teyvaz | - | 1 |
| | **Cəmi:** | **2** | **4** |
| | **Şahbuz rayonu üzrə** | | |
| 1 | Yuxarı Qışlaq | 1 | 1 |
| 2 | Biçənək | - | 1 |
| | **Cəmi:** | **1** | **2** |
| | **Kəngərli rayonu üzrə** | | |
| 1 | Qıvraq qəsəbəsi | - | 1 |
| 2 | Xıncab | 1 | - |
| 3 | Təzəkənd | 1 | - |
| 4 | Çalxanqala | - | 1 |
| 5 | Qabıllı | - | 1 |
| 6 | Yeni Kərki | 1 | 1 |
| | **Cəmi:** | **3** | **4** |

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2014-cü il aprel ayının 30-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər.

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***

### İtmişdir

Naxçıvan şəhəri, İ.Ələkbərov küçəsi 7 ünvanında yaşamış Qibləliyev Mehbalı Nəcəf oğlunun adına olan 281/3888 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Qahab kəndində yaşamış Mirzəliyev Allahverdi Baba oğluna məxsus JN-193A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Şahfirudin Məmmədova, anası
**SURƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Bələdiyyəsinin kollektivi iş yoldaşları Mürsəl Allahverdiyevə, əmisi
**HƏSƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Musiqi təlimi kafedrasının müdiri İsmayıl Mürsəlov və kafedranın əməkdaşları iş yoldaşları Validə Hüseynovaya, anası
**NÖVRƏSTƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Orkestr alətləri və dirijorluq kafedrasının müdiri Mübariz Əsgərov və kafedranın əməkdaşları iş yoldaşları Validə Hüseynovaya, anası
**NÖVRƏSTƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin kollektivi iş yoldaşları Ələddin Ələkbərova, anası
**GÜLSABAH XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin İngilis dili kafedrasının əməkdaşları iş yoldaşları Sənəm Paşayevaya, əzizi
**ETİBAR XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 354